**26.04.2011 22:10**
**MƏNBƏ: AzərTAc**
**http://www.azertag.gov.az/index_az.jsp?id=3498&date=2011-04-26**

# Muğanlı-Yevlax yolunun yenidən qurulması layihəsi üzrə işlər 2013-cü ilin ilk yarısında başa çatdırılacaqdır




Bakı, 26 aprel (AzərTAc).

Muğanlı-Yevlax yolunun yenidən qurulması layihəsinə əsasən, tikintisinə başlanılan əsas yolun uzunluğu 144,8 kilometr olacaqdır.

“Azərinşaatservis” Məhdud Məsuliyyətli Cəmiyyətindən AzərTAc-a bildirmişlər ki, II-III dərəcəli avtomobil yolu olaraq inşa edilən bu yolun üstündə 7 körpü, 4 yol ötürücüsü və 20 avtobus dayanacağı tikiləcəkdir. İki hərəkət zolağından ibarət olacaq avtomobil yolunun hər bir zolağının eni 3,75 metrdir. Ümumilikdə layihə üzrə 725 min 308 ton asfalt, 2 milyon 842 min 650 kubmetr torpaq işlərinin görülməsi planlaşdırılır. Tikintisi nəzərdə tutulan drenaj borularının ümumi uzunluğu isə 8 min 620 metrdir.

Nəqliyyat Nazirliyinin “Azəryolservis” Açıq Səhmdar Cəmiyyətinin sifarişi və Fransanın “BNP Paribas” Bankının maliyyəsi ilə həyata keçirilən layihənin 2013-cü ilin ilk yarısında başa çatdırılması nəzərdə tutulur.